# Unudulmaz anlar



Bu səhər işıqlı, al-əlvan, səsli-küylü, nəğmə dolu bir ürəkdir sanki... Aşıb-daşan, çağlayan dənizə bənzəyən, uşaq gülüşlərinə bələnmiş şəhər apağ göyərçin kimidi. Qəribsəmiş, darıxmış neçə-neçə uşaqları doğma məktəb öz isti qoynuna alır. İlk dərs günü. Bu əziz günü kim intizarla, həyəcanla, ürək çırpıntısı ilə gözləməyib?

Zəngin ənənələri ilə tanınan Bakıdakı İlqar İbrahimov adına 167 nömrəli tam orta məktəbin həyətinə toplaşan məktəblilərin, valideynlərin, müəllimlərin də üzlərindən bu intizarı, həyəcanı oxumaq olur.

Azərbaycan Respublikasının əzəmətli dövlət himni səsləndirildikdən sonra məktəbin direktoru Vaqif Quliyev gül-çiçək dənizinə bənzəyən meydana üz tutur: "Əziz məktəblilər, əziz valideynlər, müəllimlər, məktəbimizin qonaqları, bu gün "Bilik günü" — yeni dərs ilinin başlanğıcıdı. Səmimi sözümdür, illər keçməsinə baxmayaraq, təkrar-təkrar olmasına baxmayaraq eyni həyəcanı, eyni hiss və duyğuları yaşayıram. Hamınızı, xüsusilə məktəbə ilk dəfə qədəm qoyan vətənimizin gələcəyi olan körpələri, əziz balalarımızı bağrıma basıram. Məktəbi ana qucağı sayanlar yanılmayıblar. Doğrudan da təhsil aldığımız, qoynuna sığındığımız məktəb bizə ana qucağı qədər isti, mehriban, doğmadır. Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun, İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində ölkəmizdə neçə-neçə yeni məktəb inşa edilib, ehtiyacı olan məktəblər əsaslı təmir olunub, ən müasir avadanlıqlarla, məktəb ləvazimatları ilə təmin edilib. Bu gün Azərbaycan məktəblərinin hər biri həm də canlı muzeydir. 15-20 il bundan əvvəl bu cür məktəblər bizə xəyal kimi gələ bilərdi. Bütün bu yaxşı işlərə, diqqət və qayğıya görə dövlətimizə, sevimli Prezidentimizə borcluyuq. Biz bu diqqət və qayğıya yüksək biliyimizlə, yaxşı göstəricilərimizlə, vətənpərvərliyimizlə cavab verməliyik.

Bir daha hamınızı "Bilik Günü" - yeni dərs ilinin başlanması münasibəti ilə ürəkdən təbrik edir, təhsildə yeni-yeni uğurlar arzulayıram".

Çıxış edənlərin hər biri doğma məktəblə bağlı xatirələrini yada salır, balalarımıza istək və arzularını bildirir, yeni dərs ilində hər bir məktəbliyə İlqar İbrahimov kimi şərəfli ömür yolu arzulayırlar. İlk zəng çalınır, hamı işıqlı, gözəlliyi ilə göz oxşayan sinif otaqlarına tələsir. 167 nömrəli tam orta məktəbin direktoru Vaqif Quliyevlə söhbət zamanı öyrənirəm ki, İlqar İbrahimov adına 167 nömrəli tam orta məktəbi ötən il bitirən məzunların 75 faizi ali məktəblərə qəbul olunub. İki nəfər isə yüksək bal toplayanlar sırasındadır. Məktəbin məzunlarından Səidə Dadaşova 692 balla Azərbaycan Dövlət Tibb Universitetinə, Səbinə Bəşirova isə 626 balla Neft Akademiyasına qəbul olunub.

Ötən il Azərbaycan Respublikası Təhsil Nazirliyi IX siniflər üzrə buraxılış imtahanlarının nəticələrinə əsasən yüksək nailiyyətlər əldə etdiyi üçün 167 nömrəli tam orta məktəbi fəxri fərmanla mükafatlandırıb. Məktəbin direktoru Vaqif Quliyev isə pul mükafatı ilə mükafatlandırılıb. Məktəbdə bu il 2250 şagird təhsil alacaqdır. İlk dəfə məktəbə qədəm basan məktəblilərin sayı isə 280 nəfərdir.

Göründüyü kimi balalarının bu qabaqcıl təhsil ocağında təhsil almasını arzulayanların sayı çoxdur. Bu səbəbdən yeni korpusun tikintisinə ehtiyac var.

İlqar İbrahimov adına 167 nömrəli tam orta məktəbdən xoş təəssüratlarla ayrılır, bu qabaqcıl təhsil ocağına yeni dərs ilində yeni-yeni uğurlar arzulayırıq.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**